*https://doi.org/10.30546/114578.2026.3010.192*

# AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA BƏKİR ÇOBANZADƏNİN XİDMƏTLƏRİ

**Şöhrət Məmmədova**
*filologiya üzrə fəlsəfə odktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/.0009-0006-6553-6385*
*sohret.nesirova24@gmail.com*

**Xülasə**

Azərbaycan dilçilik tarixində zaman-zaman öz fitri istedadı, düşüncəsi, elmi ilə özünə belə bir tarix, taixə isə özünü yazan əbədi şəxsiyyətlərdən biri də akademik Bəkir Çobanzadə olmuşdur. Böyük türkoloq Bəkir Çobanzadə zəngin elmi və bədii yaradıcılığı, o cümlədən mühüm ictimai-siyasi fəaliyyyəti ilə adını türkçülük tarixinə qızıl hərflərlə yazmışdır. Türkologiyada yeni fikirlər müəllifi və bu elm sahəsinin inkişafında əvəzsiz xidmətləri olan B.Çobanzadə sözün əsl mənasında, elm və millət fədaisi olmuş, yaşadığı dövrdə siyasi rejimin təhlükəli məqamlarına, ağır ittihamlarına baxmayaraq, türk dillərini hərtərəfli tədqiq etmiş, onların fonetik, leksik, morfoloji və sintaktik quruluşuna, dialektologiya, terminologiya, metodika, əlifba, qrafika və s. məsələlərinə dair çoxsaylı sanballı əsərlər yazmışdır. B.Çobanzadə 20-yə qədər türk dilinin mövcudluğundan söz açmış, onların bəzilərini əhatəli öyrənmişdir.

**Açar sözlər**: dilçi, türkoloq, dialektologiya, monaqrafiya, millət fədaisi, problem, tədqiqat.

# BAKIR CHOBANZADE'S CONTRIBUTIONS TO THE DEVELOPMENT OF AZERBAIJANI SCIENCE

**Shohrat Mammadova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

In the history of Azerbaijani linguistics, one of the eternal personalities who, from time to time, wrote such a history for himself and himself in history with his innate talent and scientific thinking is Academician Bekir Chobanzade. The great Turkologist, professor Bekir Chobanzade, wrote his name in golden letters in the history of Turkism with his rich scientific and artistic creativity, as well as important socio-political activity. B.Chobanzade, who was the author of

new ideas in Turkology and made invaluable contributions to the development of this field of science, was a devotee of science and the nation in the true sense of the word. Despite the dangerous moments and heavy accusations of the political regime during his lifetime, he thoroughly studied the Turkic languages, wrote numerous significant works on their phonetic, lexical, morphological and syntactic structure, dialectology, terminology, methodology, alphabet, graphics, etc. B.Chobanzade spoke about the existence of up to 20 Turkic languages, and studied some of them comprehensively.

**Key words:** Linguist, turkologist, dialectology, monograph, nationalist, problem, research.

## ЗАСЛУГИ БЕКИРА ЧОБАНЗАДЕ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ

**Шохрат Мамедова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В истории азербайджанского языкознания одним из тех выдающихся деятелей, которые своим природным талантом, мышлением и научной деятельностью вписали своё имя в историю, а саму историю − в себя, был академик Бекир Чобанзаде. Великий тюрколог Бекир Чобанзаде благодаря своему богатому научному и художественному наследию, а также значительной общественно-политической деятельности, вписал своё имя в историю тюркства золотыми буквами. Являясь автором новаторских идей в тюркологии и обладая неоценимыми заслугами в развитии данной области науки, Б.Чобанзаде в подлинном смысле слова был подвижником науки и нации. Несмотря на опасные моменты политического режима и тяжёлые обвинения своего времени, он всесторонне исследовал тюркские языки, создав многочисленные фундаментальные труды, посвящённые их фонетической, лексической, морфологической и синтаксической структуре, а также вопросам диалектологии, терминологии, методики, алфавита, графики и другим проблемам. Б.Чобанзаде говорил о существовании около двадцати тюркских языков и некоторые из них изучил всесторонне.

**Ключевые слова:** лингвист, тюрколог, диалектология, монография, подвижник нации, проблема, исследование.

**Giriş/Introduction**

*"Türk xalqlarının ədəbi-mədəni mühitində əvəzsiz uğurlara imza atmış və heç kəslə müqayisə olunmayacaq ucalıqda dayanacaq Bəkir Vahab oğlu Çobanzadənin həyatının, mühitinin bir bütöv olaraq təhlilə gətirilməsi elmin, çağdaş ədəbi mədəni mühitin qarşısında duran ən ümdə məsələlərdəndir"* [Allahmanlı, 2022:5].

"Bəkir Sidqi Bavbek", "Bəkir Sidqi Çobanzadə", "Bəkir Çobanzadə", "B.Çobanzadə" imzaları ilə ədəbi sferaya daxil olan dünya şöhrətli türkoloq, Azərbaycanda dilçilik elminin inkişafında böyük xidmətləri olan Bəkir Çobanzadə XX əsrin 20-30-cu illərində özünün çoxşaxəli fəaliyyəti ilə təkcə Krımda, Azərbaycanda deyil, hətta bütün postsovet ölkələrində yenilikçi, novator, dərin intellektual səviyyəyə malik, erudisiyalı alim kimi şöhrət qazanmışdır. İbtidai təhsilini Krımda alan B.Çobanzadə Türkiyədə – Qalatasarayda "Sultaniyyə" liseyini əla qiymətlərlə başa vurmuş, daha sonra Macarıstana göndərilmiş, Budapeşt Universitetinin Şərq dilləri fakültəsinə daxil olmuşdur. 1919-cu ildə universiteti qızıl medalla bitirərək həmin ilin yayında Lozanna Universitetinə dəvət edilmiş və burada ona fəlsəfə elmləri doktoru, professor rütbəsi verilmişdir.

1920-24-cü illərdə Krımda yaşayıb fəaliyyət göstərən alimin sonrakı həyatı Azərbaycanla bağlıdır. Bəkir Çobanzadə 1924-cü ildə Bakıya dəvət edilmiş və bir neçə istiqamətdə (Yeni Türk əlifba Komitəsi yanında elmi şuranın, yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi komitəsinin, Azərbaycan Baş Elm İdarəsində Terminologiya komitəsinin rəhbəri olaraq) fəaliyyətə başlamışdır. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində kafedra müdiri, dekan vəzifələrində çalışmışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetində mahazirələr demiş və ömrünün sonunadək türkologiyanın, Azərbaycan filologiyasının, ictimai fikir tarixinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Türkoloq Ramiz Əskər yazır: "Bəkir Çobanzadə türklüyün şah əsəri "Divani-lüğət-it-Türk" yazarı Kaşğarlı Mahmud və Rusiya Elmlər Akademiyasının Demidov mükafatını dörd dəfə qazanan Mirzə Kazımbəydən sonra türk dilçiliyinin ən şöhrətli ismidir. 1915-ci ildən həyatının sonuna qədər dil tarixi, müqayisəli dilçilik, qrammatika, imla, əlifba, pedaqogika, dialektologiya, terminologiya və digər mövzularda yazdığı 150-dən çox elmi əsər bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamaqdadır" [Əskər, 2013:14].

**Dilçilik və türkologiya B.Çobanzadənin elmi araşdırmalarında.** Budapeştdə aldığı Avropa standartları səviyyəsində olan filoloji və türkoloji təhsil onun elmi dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Ona görə də alimin elmi əsərlərində macar filologiyasının nailiyyətlərindən, macar

alimlərinin əsərlərindən tez-tez istifadə edilmişdir. Məlumdur ki, B.Çobanzadənin elmi fəaliyyətinin əsas hissəsi Azərbaycan, Bakı ilə bağlı olmuşdur. Burada o, türkologiyanın əsas problemlərinə: ortaq türk dili, ortaq türk əlifbası problemlərinə aid çox qiymətli əsərlərini yazmış və nəşr etdirmişdir Bakıya gəldiyi 1924-cü ildə onun çox qiymətli "Türk-tatar lisaniyyatına mədxəl" monoqrafiyası işıq üzü görmüşdür.

Azərbaycan dilinin qrammatikası məsələləri ilə elmi şəkildə məşğul olan ilk dilçi alim olan Bəkir Çobanzadənin müasir Azərbaycan dilinin qrammatik quruluşu haqqındakı fikirləri onun "Türk-tatar lisaniyyatına mədxəl" (1924), "Türk dili – evdə texnikum" (1928), "Türk dili" (1929), F.Ağazadə ilə birlikdə yazdıqları "Türk qrameri" [1929-1930), Q.Bağırzadə ilə birlikdə yazıb-nəşr etdirdikləri "Elmi qramerin əsasları" (1929), "Türk dilinin metodikası" (1932) və s. əsərlərində öz əksini tapmışdır.

Saysız-hesabsız araşdırmalar aparan alim 1924-cü ildə yazdığı "Türk-tatar lisaniyyatına mədxəl" monaqrafiyası yeni əlifba ilə Nuridə Novruzova tərəfindən 2006-cı ildə Bakıda nəşr edilmişdir. İstanbul şivəsi ilə yazılmış bu əsərdə əsas iki məqsəd göstərilmişdir:

1. Ümumi dilçilik qanun-qaydalarının türk-tatar dillərinə tətbiqi haqqında müxtəsər məlumat;

2. Türk-tatar dillərinin tədqiqi tarixi və buna aid məsələlər.

"Türk-tatar lisaniyyatına mədxəl" monaqrafiyasında müəllif dilimizin ümumi dilçilik çərçivəsində tədqiqinin mühüm bir ehtiyac olduğunu əsaslandırmışdır. Əsər aşağıdakı əsas bölmələrdən ibarətdir: səslər, morfologiya, dillərin morfoloji təsnifi, sözlər, söz sinifləri, dillərin genealoji təsnifi, dilin mənşəyi, dilin ömrü, məna dəyişmələri. Dilçiliyin mövzusu, vəzifəsi və tədqiq üsulları. Türk-tatar dillərinin müasir problemləri. Dillərin genealoji təsnifi bölməsində isə alim hətta hind-Avropa və Ural-Altay dil ailələrindən daha geniş şəkildə bəhs edir [Çobanzadə, 2007:73].

B.Çobanzadə Azərbaycan dilinin qrammatikası ilə bağlı da tədqiqat işlərinin müəllifidir. O, mövcud qrammatikaların mənfi cəhətlərini görmüş, buna görə də yeni əsər yazmaq qərarına gəlmişdir. Alimin Fərhad Ağazadə ilə birgə qələmə aldığı "Türk qrameri" əsəri türkologiyada dəyərli tədqiqat əsərlərindəndir. Əsərin "Başlanğıc" hissəsində tərtib edilmiş bölmələrin müəllifləri haqqında məlumat verilir: "imla", "durğu işarələri" bəhsləri F.Ağazadə, qalan müqəddimə", "sövtiyyat", "şəkliyyat", "nəhv" və "məna" bəhsləri və biblioqrafiya professor B.Çobanzadə tərəfindən tərtib edilmişdir" [Çobanzadə, 2007:65]. Kitabda qazax, qırğız, Qaraçay, Osmanlı, türkmən, azəri dilləri üzərində müqayisəli təhlil aparılmış, həm də "Orxon-Yenisey"

kitabələrinin, Mahmud Kaşğarinin “Divani-lüğət it-türk”, “Kutadqu-bilik” və digər abidələrin fərdi dil xüsusiyyətlərinə əsaslanaraq azəri ləhcəsinin şıfahi və yazılı dili, səs və hərfi müxtəlif istiqamətlərdə tədqiq edilmiş, terminlər və qrammatik kateqoriyalar izah edilmişdir.

1924-1925-ci illərdə I Türkoloji Qurultaya hazırlıq işlərini həyata keçirənlərin öncüllərindən biri də B.Çobanzadə idi. Qurultayqabağı onun təşəbbüsü və rəhbərliyi altında müzakirəyə çıxarılacaq latın qrafikalı əlifba əsasında yeni bir əlifba layihəsi də hazırlanmışdır. 1926-cı ilin 26 fevral – 6 mart tarixində keçirilən I Türkoloji Qurultayda Bəkir Çobanzadə rəyasət heyətinin üzvü seçilmişdir. Türkoloji qurultayda Çobanzadə bir neçə məsələ ilə bağlı iki məruzə ilə, ikinci iclasda “Türk dilinin yaxın qohumluğu” və səkkinci iclasda “Elmi terminologiyanın sistemi” məruzələri ilə çıxış da etmişdir. Lakin təəssüflə qeyd edilməlidir ki, B.Çobanzadənin əlifba məsələsi ilə bağlı məruzəsinə qurultayın stenoqram materiallarında rast gəlinmir. Həmin stenoqramda, sadəcə bu sözlər yazılıb: “*Prof. Çobanzadənin çıxışından sonra söz yoldaş Baxarova verilir*” [Allahmanlı, 2022:262].

Ə.Xələfli “Bəkir Çobanzadə fenomeni” məqaləsində yazır: “*Kimdir Bəkir Çobanzadə?” Yüzlərlə öldürülən, məhv edilən fikir sahiblərindən biri və ən başlıcası, qeyri-adi fikir sahiblərindən biri-şair, alim, böyük türkoloq . Yenə ən başlıcası, Azərbaycanı bütün varlığı ilə sevən ədəbiyyat tarixçisi, qüdrətli dilçi, türkologiyanın Azərbaycanda nəhəng bünövrə daşı... Bəkir Çobanzadə az-çox onun adın*ı *eşidən, haqqında az da olsa sahib olan hər bir kəs üçün böyük Turan obrazı idi*” [Xələfli, 2013].

Əsərlərinin sayı müxtəlif mənbələrdə fərqli göstərilsə də, ümumi olaraq, 300-dən artıq məqalənin, 41 monoqrafik tədqiqatın müəllifi olan Bəkir Çobanzadə ixtisasca dilçi-türkoloq idi və bu qiymətli əsərlərin böyük bir qismi dil və türkologiya problemlərinə həsr olunmuşdur.

**Çobanzadənin tədrislə bağlı nəzəri görüşləri** . Millətin tərəqqisinin ən bariz göstəricisinin onun məktəblərinin və ibtidai siniflərinin olduğunu bilən görkəmli türkoloq dilçilik, ədəbiyyatşünaslıq, maarif, təhsil, türk dillərinin tədris metodikası kimi bir çox sahələrə aid sanballı əsərlər yazmış, öz araşdırmaları ilə Azərbaycan elminin inkişafına təkan vermişdir. B.Çobanzadə Azərbaycan dili və ədəbiyyatının nəzəri məsələlərini təqdiq etməklə kifayətlənmir, onların orta və ali məktəblərdə tədrisi metodları, yolları haqqında qiymətli əsərlər, dərslik və dərs vəsaitləri, məqalələr yazırdı. Onun dilimizin, milli ədəbiyyatımızın tədrisi üsulları haqqındakı fikirləri bu gün də öz aktuallığını itirməmişdir. Bəkir Çobanzadə məktəblərdə və universitetlərdə dil dərsinin əhəmiyyətindən danışarkən yazırdı: “*Dil birinci dərəcəli məktəblərdə doğur və başlayırsa, ikinci*

*dərəcəli məktəblərdə bütün varlığı və genişliyi ilə inkişaf edir. Məqsəd dili, dil hadisələrini daha dərin, daha ətraflı və geniş surətdə öyrənmək və öyrətməkdən başqa bir şey deyildir. Birinci dərəcəli məktəblərdə dil üzərində edilən müşahidələr, ikinci dərəcəli məktəblərdə daha üsuli və mücərrəd bir şəkil ala bilər*" [Çobanzadə, 2007:317].

B.Çobanzadəyə qədər dilçiliyə, ədəbiyyatşünaslığa dair əsərlər yazılmışdı, lakin dilin və ədəbiyyatın tədrisi metodikası haqqında elmi əsərlər, dərsliklər yox dərəcəsində idi. Çünki Azərbaycanda sovet hakimiyyəti qurulana qədər hələ maarif, təhsil, məktəb sistemi inkişaf etməmiş, dil və ədəbiyyat fənləri məktəblərdə öz lazımi mövqeyini tuta bilməmişdi. "*1906-cı ildə Həsən Səbri Ayvazovun "Üsuli-tədris və təlim-tərbiyə", 1908-ci ildə Hafiz Məmmədəmin Şeyxzadənin "Fəsahət və bəlağət, fənni-inşa və üsuli-kitabət" adlı metodik əsərləri çap olunmuşdur və bu əsərlər günümüzlə səsləşən müddəalarla zəngindir*" [Çobanzadə, 2007:31]. Bu əsərlərdə metodikaya aid mülahizələrə rast gəlirik. Müəlliflər ən çox müəllimlərin nitqinin necə olması məsələsinə diqqət çəkir, nitqə verilən tələbləri göstərirlər. Lakin dilin mənimsədilməsi üsulları, yolları əsaslı şəkildə şərh edilməmişdir. Bəkir Çobanzadə irsinin araşdırıcısı N.Babayev haqlı olaraq yazır: "*B.Çobanzadəyə qədər Azərbaycan dilinin qrammatikasına dair daha çox məktəb metodikası səviyyəsində bir sıra əsərlər yazılsa da, onlar həm elmi cəhətdən zəif idi, həm də yeni tədris və təlim metodları üçün köhnəlmişdi. Ona görə də tədris prosesinin müasir tələblərinə uyğun yeni dərslik yaratmaq məsuliyyəti görkəmli alimin üzərinə düşdüyündən nəinki qrammatik qanunlar haqqında, habelə yeni qrammatikanın elmi-metodoloji əsasları haqqında da qiymətli fikirlər söyləmişdir*" [Babayev, 1984:53].

B.Çobanzadənin 1926-cı ildə nəşr olunan "Türk dili və ədəbiyyatının tədrisi üsulu" əsəri həm öz dövrü üçün, həm də müasir zaman üçün böyük əhəmiyyət kəsb edir. Bu əsərdə əks olunan müddəalar bugünkü müasir metodika üçün də çox aktualdır. B.Çobanzadənin 5000 tirajla nəşr edilmiş bu kitabı Azərbaycan dilinin məktəblərdə tədrisinə aid ilk metodik vəsaitdir. Əsər 17 fəsildən ibarətdir: 1. Başlanğıc; 2. Dil və fəlsəfə; 3. Dil bilgisinin və türk lisanının əsasları; 4. Dilin məktəblərdə əski və yeni mövqeyi; 5. Səs və hərf; 6. Əlifbanın öyrədilməsi; 7. Əlifbasız oxutma və s. "Türk dili və ədəbiyyatının tədris üsulu" monoqrafiyasının ikinci qismində ədəbiyyatla bağlı məsələlərə yer verir. Buradakı mülahizələrindən və tədqiqata cəlb etdiyi məsələlərdən bir daha aydın olur ki, Çobanzadə ədəbiyyatşünaslıq elminə dərindən bələd olub. Müəllif söylədiyi bütün fikirlərdə türk, rus, Avropa alimlərinin nəzəriyyələrinə diqqəti cəlb edir və bütün nüansları müqayisəli şəkildə təqdim edir. Ədəbiyyatın

yaranması və inkişafına təsir edən amilləri, ədəbiyyatın tarixi dövrləşmə prinsiplərini, ədəbiyyatşünaslıq elminin sahələrini, ədəbi məktəb və cərəyanlar haqqında fikirləri alim diqqət mərkəzinə gətirir və elmi şəkildə həllinə çalışır. Ədəbiyyatın mənşə və inkişafı ilə bağlı problemin həllində də dünya alimlərinin fikirlərindən sitatlar gətirərək öz mövqeyini sərgiləyir.

Əsərin birinci hissəsində ilk baxışda dil tədrisi ilə əlaqədar olmayan iki bəhs diqqəti cəlb edir: Dil və fəlsəfə və Türk dilinin tarixçəsi. Lakin həmin bəhsləri diqqətlə oxuduqda onların metodika ilə bağlı olduğu anlaşılır. B.Çobanzadə bu əsərdə dilin tədrisi metodikasına dair əsas mətləbləri açıqlamağa müvəffəq olmuşdur. O hesab edirdi ki, dil dərsləri şagirdlərə ana dili dərsliklərindən kiçik materiallar tədris etməklə kifayətlənməməlidir. Dil dərsləri şagirdlərin ümumi, hərtərəfli inkişafına kömək etməlidir. Ümumiyyətlə, alimin tədrislə bağlı dəyərli fikirlərinin ayrıca tədqiqata cəlb edilməsi müasir metodika üçün vacib məsələlərdən biridir.

**Nəticə /Conclusion**

Böyük şəxsiyyətlər bütün əməlləri, gördüyü əvəzsiz izləri, fəaliyyəti ilə yanaşı zamanında və ondan sonrakı zaman kəsimlərində millətin örnəyi olur, bir növ xalqın idealı səviyyəsində elə xalqın özü ilə birgə addımlayır. Elmi-ədəbi mühitdə fitri istedadı, dərin elmi düşüncəsi və fundamental araşdırmaları ilə seçilən böyük dilçi, tükoloq alim, ədəbiyyatşünas Bəkir Çobanzadə ömrünü xalqına, vətəninə fəda edən, Azərbaycan pedaqoji fikrinin inkişafında əlindən gələni əsirgəməyən belə dahilərdəndir. Bəkir Çobanzadə təkcə Azərbaycanda və sovet türkologiyasında deyil, bütün türk dünyasında görkəmli elm xadimidir.

**ƏDƏBİYYAT/REFERENCES**

1. Allahmanlı, M. (2022). Bəkir Çobanzadə. − Bakı: ADMİU-nun mətbəəsi. – 448 s.
3. Babayev, N. (1986). Ədəbi mübahisələr. − Bakı: “Yazıçı”. − 179 s.
4. Çobanzadə, B. (2007). Seçilmiş əsərləri. 5cilddə, I cild. − Bakı: “Şərq-Qərb”. − 336 s.
5. Çobanzadə, B. (2007). Seçilmiş əsərləri. 5cilddə, II cild. − Bakı: “Şərq-Qərb. − 368 s.
6. Çobanzadə, B. (2007). Seçilmiş əsərləri. 5cilddə, III cild. − Bakı: “Şərq-Qərb”. − 344 s.
7. Çobanzadə, B. (2007). Seçilmiş əsərləri. 5cilddə, lV cild. − Bakı: “Şərq-Qərb”. − 200 s.
8. Çobanzadə, B. (2007). Seçilmiş əsərləri. 5cilddə, Vcild. − Bakı: “Şərq-Qərb”. − 264 s.

9. Eyvazov, P. (2013). Bəkir Çobanzadənin dil təqdiqatlarında qrammatik kateqoriyaların şərhi / "Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları. − Bakı: Bakı Universiteti nəşriyyatı. − s.56-63.

10. Əskər, R. (2013). Bəkir Çobanzadənin bədii əsərləri / "Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri" Respublika elmi konfransının materialları / – Bakı: Bakı Universiteti nəşriyyatı. − 8 iyun. − s.17-26.

11. Xələfli, Ə. (2013). Bəkir Çobanzadə fenomeni // "Kredo" qəzeti. − № 23 (733). – s.3-4.

12. Novruzova, N. (2006). Bəkir Çobanzadə: Türk-tatar lisaniyyatına mədxəl əsəri. − Bakı: "Aspoliqraf". − 234 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *03.02.2026*
*Düzəlişə göndərilib* *05.02.2026*
*Qəbul edilib* *20.02.2026*
*Nəşrə tövsiyə edib* *Məhərrəm Məmmədli*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*